# BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ONUN AZƏRBAYCAN XALQININ MƏDƏNİ İNKİŞAFINDA ROLU
## (Tarix və muasirlik kontekstində)

**İ.M.HÜSEYNOVA[*]**

Azərbaycan Respublikası XXI əsrə hüquqi, demokratik, dünyəvi, sivil bir dövlət olaraq daxil olaraq, qloballaşan dünyada milli mənəvi dəyərlərini çağdaş beynəlxalq aləmə inteqrasiya etmək yolunda inamlı addımlar atmaqdadır. Azərbaycanın müstəqil dövlətçilik prinsipləri içərisində prioritet təşkil edən milli mənəvi dəyərlərin qorunub saxlanması, onların gələcək nəsillərə ötürülməsi və ümumbəşəri dəyərlərə inteqrasiya olunması yolunda mühüm tarixi-siyasi addım sayılan, «Birinci Türkoloji Qurultayın 80 illik yubileyi haqqında» dövlət başçısı, möhtərəm Prezident İlham Əliyev tərəfindən bu yaxınlarda imzalanmış sərəncam müstəsna əhəmiyyət kəsb edir. Həmin tarixi sənəddə deyildiyi kimi, «Qurultay türkdilli xalqların tarix və etnoqrafiyasının, dil və ədəbiyyatlarının aktual problemlərinin həllində mühüm rol oynamış, bu xalqların mədəni inkişafında yeni bir mərhələnin təməlini qoymuşdur. Qurultayda müzakirə obyekti olan problemlər arasında türk dillərinin əlifba, orfoqrafiya və terminologiya məsələləri xüsusi yer tutmuş, bu sırada isə yeni əlifbaya keçidi təmin etmək başlıca məqsəd olmuşdur...»[1]

Hər bir xalqın milli varlığının, milli düşüncəsinin əsas simvolu sayılan milli dilin, xüsusən ədəbi dilin hərtərəfli inkişafında, müstəqil milli dövlətçilik ənənələrinin formalaşmasında, ən başlıcası isə xalqın mədəni yüksəlişində, intellektual potensialının yaranmasında, elm, maarif, təhsil və mədəniyyətinin çiçəklənməsində – ümumilikdə mədəni quruculuqda əlifbanın müstəsna rolu olduğunu sübut etməyə, fikrimizcə, xüsusi ehtiyac yoxdur.

Təsadüfi deyildir ki, xalqımızın mədəni tərəqqisində, milli oyanışında maarif və mədəniyyətin müstəsna rolunu yüksək qiymətləndirən milli ziyalılarımız XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda əlifba islahatı uğrunda mübarizəyə qalxdılar. Həmin maarifpərvər ziyalılar mədəni inkişafda Avropa modelini

---

[*] Hüseynova İradə Mehdiqulu qızı – Azərbaycan Respublikası Təhsil nazirinin müavini, tarix elmləri doktoru, professor.

[1] «Azərbaycan» qəzeti, 10 noyabr 2005-ci il.

əsas tutaraq Azərbaycan dilinin fonetik və qrammatik quruluşuna yad olan ərəb əlifbasının latın əlifbası ilə əvəzlənməsi yolu ilə Qərb sivilizasiyasına inteqrasiyaya üstünlük verirdilər. Bu ideyanın ilk müəllifi, alovlu təbliğatçısı və böyük carçısı olan M.F.Axundov başda olmaqla, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində əlifba islahatı uğrunda milli-maarifçilik hərəkatı genişlənsə də, o zamankı tarixi-siyasi şərait onu reallaşdırmağa imkan verməmişdi. Həmin dövrdən başlayaraq Azərbaycan mədəniyyətinin müasir inkişafın yollarını müəyyənləşdirən Avropa-Qərb yönümlü milli maarifçilik hərəkatının azərbaycanlı ideoloqları latın qrafikası əsasında yeni əlifba ideyası uğrunda ümumtürk səviyyəsində mübarizənin önündə gedirdilər. Və bu öncüllük həm ideya, həm də real iş baxımından Azərbaycanı türkologiyanın mərkəzinə çevirmişdi. Latın əlifbasına keçid yolunda türkdilli xalqlar içərisində ilk tarixi addım da məhz Azərbaycanda – türk dünyası və Şərq aləmində ilk hüquqi-demokratik, parlamentli, dünyəvi dövlət sayılan Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dönəmində atıldı...

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması maarifçi ziyalıların on illərlə arzusunda olduqları əlifba islahatını reallaşdırmağa tarixi imkan və şərait yaratdı.

Belə ki, Azərbaycan Parlamenti 1919-cu il martın 21-də qəbul etdiyi xüsusi qərarla Xalq Maarifi Nazirliyi yanında parlamentin üzvü Xudadat bəy Məlikaslanovun sədrliyi ilə Əlifba İslahatı üzrə Hökumət Komissiyası yaradıldı. Əlifba islahatı tədbiri, hər şeydən öncə, milli hökumətin maarifçilik, xalq təhsilinin milliləşdirilməsi sahəsində qarşısında duran ideyaların gerçəkləşməsinə birbaşa xidmət edirdi. Əlifba islahatına böyük önəm verilməsi məhz bu ümummilli vəzifədən irəli gəlirdi. Azərbaycan hökumətinin diqqət və qayğısı altında fəaliyyət göstərən Əlifba İslahatı Komissiyası tərəfindən tez bir zamanda bir neçə əlifba layihəsi hazırlanıb Azərbaycan Parlamentinə təqdim olundu. Lakin təqdim olunmuş əlifba layihələrindən ancaq müəllim Abdulla bəy Əfəndizadənin hazırladığı variant Azərbaycan Parlamenti tərəfindən əsas kimi qəbul edildi. Əlifba islahatı nəticəsində latın qrafikalı əlifbaya keçidin zəruriliyi ilə əlaqədar bir faktı da xatırlatmaq yerinə düşər ki, həmin layihənin müəllifi Abdulla bəy Əfəndizadənin 1919-cu ildə Bakıda «Son türk əlifbası» adlı dərsliyi də nəşr olunmuşdu. Bu dərslikdə ilk dəfə olaraq ərəb və latın əlifbaları müqayisəli şəkildə verilmiş, birincinin Azərbaycan dilinin fonetik sisteminə uyğunsuzluğu, ikincinin isə uyğunluğu zəngin dil faktları ilə göstərilmişdi. Kitabın «Giriş»ində müəllif latın əlifbasının əhəmiyyətindən danışarkən yazırdı: «Bu əlifbanı məktəb cocuqları öyrənərlərsə, onlar üçün latın, firəng, nemes və rus dillərini oxumaq nə qədər asan bir şey olduğunu kimsə inkar etməz. Buna görə həmin əlifbanı ərəb əlifbası ilə bərabər ibtidai məktəblərdə oxutmuş olursaq, əhaliyə böyük mənfəətlər qazandırmış olarıq. Məhz bu mülahizə ilə mən də həmin əsəri meydana gətirdim ki, hər iki əlifbanı birlikdə oxutmaq

mümкün olsun...»[1]

Bu faкt onu göstərir кi, milli höкumət əlifba islahatı sahəsində müəyyən əməli addımlar atmış, həmin tarixi-mədəni hadisəni reallaşdırmaq üçün hüquqi baza yaratmış, latın əlifbasını tədricən təhsil müəssisələrində öyrətməyə başlamış, ilк təcrübə кimi hətta dərsliк də hazırlatmışdı...

Azərbaycan Milli Höкumətinin Sovet Rusiyası tərəfindən hərbi təcavüz yolu ilə devrilməsi səbəbindən digər bir çox milli maarifçiliк ideyaları кimi əlifba islahatı tədbirini də o zaman sonadəк gerçəкləşdirməк mümкün olmadı...

Ancaq bu tarixi həqiqəti etiraf etməк lazım gəlir кi, «Cümhuriyyət dövrü»ndə artıq reallaşmaq ərəfəsində olan əlifba islahatı ideyasına Azərbaycanda Sovet haкimiyyətinin ilк illərində, daha dəqiq desəк, 1921-ci ildə yenidən qayıdıldı, geniş müzaкirələrdən sonra 1922-ci ilin may ayında Nəriman Nərimanovun imzaladığı xüsusi deкretlə Azərbaycan Xalq Komissarlar Soveti yanında Yeni Türк Əlifba Komitəsi yaradıldı. Komitənin hazırladığı latın qrafiкalı Azərbaycan əlifbası «Yeni yol» qəzetində (22 sentyabr 1922-ci il) çap olundu. Burada bir tarixi məqamı da xatırlatmaq yerinə düşərdi. «Cümhuriyyət dövrü»ndə Əlifba İslahatı üzrə Höкumət Komissiyasının üzvlərindən olan Xudadat bəy Məliкaslanov, Həmid bəy Şahtaxtinsкi, Fərhad Ağazadə, Azad bəy Əmirov, Əhməd bəy Pepinov Azərbaycan İctimai Şura Cümhuriyyətinin (Azərbaycan SSR) nisbi müstəqilliк dövründə (1920-1922-ci illər) də latın əlifbasına кeçidlə bağlı Höкumət Komissiyasının (sədr Səmədağa Ağamalıoğlu idi) «Latınçılar» qanadının ən fəal üzvlərindən olmuş, bu ümummilli ideyanın gerçəкləşməsi yolunda sonadəк mübarizə aparmışdılar...

Yeni Türк Əlifba Komitəsinin 1922-1925-ci illərdə türкdilli xalqlar arasında əlifba islahatı üzrə geniş və səmərəli fəaliyyəti nəticəsində Azərbaycanda latın əlifbasına кeçidlə bağlı türкoloji qurultayın кeçirilməsi ideyası yarandı[2].

Araşdırmalar göstərir кi, əvvəllər I Türкoloji Qurultayın Leninqradda (Sanкt-Peterburqda) və Mosкvada кeçirilməsi barədə razılıqlar olsa da, sonralar həmin tarixi qurultayın Azərbaycanın paytaxtı Baкıda кeçirilməsi qərara alınmışdı. Bu faкtın zəruriliyini aşağıdaкı tarixi amillər şərtləndirirdi: əvvəla, latın əlifbasına кeçid, yaxud ərəb əlifbasının islahı ideyası ilк dəfə Azərbaycan maarifçiləri tərəfindən irəli sürülmüşdü. İкincisi, əlifba islahatı dövlət səviyyəsində də ilк dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaldırılmış, bir sıra əməli addımlar atılmışdı. Üçüncüsü, əlifba islahatı üzrə Yeni Türк Əlifba Komitəsi də Azərbaycan Sovet Sosialist Respubliкasında təşкil edilmiş, digər türкdilli xalqlar arasında, xüsusən, Azərbaycanda latın əlifbasına кeçidlə bağlı

---

[1] Bu haqda ətraflı bax: M.Mərdanov, Ə.Quliyev. Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920). Baкı, 2003. S. 59-63.

[2] Bu haqda ətraflı məlumat üçün bax: Azərbaycan tarixi. VI cild. Baкı, 2002. S. 201-225.

ciddi hazırlıq işləri görülmüşdü. Dördüncüsü, Azərbaycanda bu prosesi idarə edəcək elmi potensial, görkəmli türkoloqlar cəmləşmişdi. Nəhayət, Azərbaycanda sonralar Elmlər Akademiyasının formalaşmasında mənbə, əsas rolunu oynamış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti öz ətrafında güclü elmi qüvvələr cəmləşdirmişdi.

Bütün bu deyilən amillər Birinci Beynəlxalq Türkoloji Qurultayın Bakıda keçirilməsinə əsas vermişdi. Araşdırmalar göstərir ki, qurultay ərəfəsində keçmiş SSRİ-nin siyasi rəhbərliyi müxtəlif bəhanələrlə latın əlifbasına keçid prosesinə mane olmağa ciddi səylər göstərsə də, bu prosesin qarşısını ala bilməmişdi. Beləliklə, Azərbaycanda və bütünlüklə keçmiş SSRİ-də dil quruculuğu sahəsindəki işlərin elmi müzakirəsini təşkil etmək, Yeni Türk Əlifba Komitəsinin əlifba islahatı üzrə apardığı çoxillik mübarizənin nəticələrini müzakirə etmək məqsədilə Bakıda keçirilən Birinci Beynəlxalq Türkoloji Qurultayın (sənədlərdə I Ümumittifaq Türkoloji Qurultay adlanır – İ.H.) tarixi mədəni əhəmiyyəti böyükdür.

Yeni Türk Əlifba Komitəsi ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin birgə qərarı ilə çağırılan Birinci Türkoloji Qurultay 26 fevral – 5 mart 1926-cı ildə Bakı şəhərində, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin binasında – tarixi «İsmailiyyə»də (indiki Azərbaycan MEA Rəyasət Heyətinin binası) keçirildi. Qurultayda 131 nəfər nümayəndə və xeyli qonaq iştirak edirdi. Nümayəndələr arasında təkcə SSRİ-dən deyil, bir sıra Avropa ölkələrindən, eləcə də, Türkiyədən (Əli bəy Hüseynzadə, Mehmed Fuad Köprülüzadə) də görkəmli türkoloqlar vardı.

Qurultayın 17 iclasında türk xalqlarının tarixi, etnoqrafiyası, mədəniyyəti, dil və ədəbiyyatlarına həsr olunmuş 38 elmi məruzə dinlənilmiş, həmin məruzələr üzrə müvafiq qətnamələr və tövsiyələr qəbul edilmişdi[1].

Əlamətdar hal idi ki, Qurultayın ikinci iclasında görkəmli şərqşünas-tarixçi akademik V.V.Bartoldun «Türk xalqları tarixinin müasir vəziyyəti və onun tədqiqinin yaxın vəzifələri» adlı fundamental məruzəsi, eləcə də, Q.F.Çursinin «Qafqaz türklərinin etnoqrafiyasının öyrənilməsinin yaxın vəzifələri», İ.İ.Borozdinin «Tatar mədəniyyəti sahəsində ən yeni tapıntılar», Y.Messaroşanın «Anadolu və Balkan türklərinin etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri», A.A.Müllerin «Türk xalqları təsviri sənəti haqqında» məruzələri və on altıncı iclasda S.F.Oldenburqun «Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları» adlı məruzəsində türk xalqlarının tarixi keçmişi, onların mövcud vəziyyəti və qarşıda duran vəzifələrə dair konseptual məqamlar öz əksini tapmışdır. Əlbəttə, bu qurultayda türk xalqlarının tarixi, etnoqrafiyası və mədəniyyətinə dair dinlənilən həmin məruzələrdə qaldırılan problemlər XX əsrdə keçmiş Sovetlər Birliyində tarixçi-

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля – 5 марта 1926 г. Стенографический отчет. Баку, 1926.

türkoloqlar tərəfindən zaman-zaman (1936-1956-cı repressiya illəri istisna olmaqla) öyrənilmişsə də, həmin tarixi tədqiqatlar sovet ideologiyasının stereotiplərindən də azad olmamışdı. Yalnız XX əsrin sonunda SSRİ dağıdıldıqdan sonra türk xalqlarının həqiqi tarixini yazmaq və ali məktəblərdə geniş tədris etmək mümkün olmuşdur.

I Türkoloji Qurultayda xeyli sayda tarix, etnoqrafiya və mədəniyyətə dair görkəmli tarixçilərin məruzələri dinlənilsə də, qurultay öz məqsədinə uyğun olaraq əlifba, orfoqrafiya, terminologiya və metodika məsələlərinə həsr olunmuş məruzələrə üstünlük vermiş, əsasən, həmin məsələlər, xüsusən, latın qrafikalı əlifbaya keçid məsələsinə dair qətnamələr qəbul etmişdir. Qurultayda bu problemlərə dair görkəmli türkoloqlardan Mehmed Fuad Köprülüzadənin «Türk xalqlarının ədəbi dillərinin inkişafı», A.N.Samoyloviçin «Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri», B.Çobanzadənin «Türk ləhcələrinin yaxın qohumluğu haqqında» və «Elmi terminologiya sistemi haqqında», A.P.Zifeldt-Simumyaginin «Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında», S.Y.Malovun «Qədim türk dillərinin öyrənilməsi», C.Məmmədzadənin «Türk xalqlarının əlifba sistemləri haqqında», F.Ağazadənin «Türk dilində düzgün yazı» və başqa məruzələri dinlənilmiş, geniş və gərgin müzakirələr aparılmışdır.

Qurultayın ən böyük nəticəsi türkdilli xalqların latın əlifbasına keçidinə dair qəti qərar qəbul etməsi oldu. Lakin bir reallığı da diqqətdən qaçırmaq olmaz ki, qurultayın qərar və tövsiyələri qısa müddətli icra tələb edən ideyalar, göstərişlər səviyyəsində qalmayıb, böyük perspektiv əhəmiyyətli gələcək strateci istiqamətləri də özündə əks etdirmişdi...[1]

Doğrudur, qurultayın qərar və göstərişləri dərhal reallaşdırılmağa başlandı.

1929-cu il yanvarın 1-dən Azərbaycanda latın əlifbasına tam keçildi. I Türkoloji Qurultayın qərarına uyğun olaraq digər türkdilli xalqlar və respublikalarla yanaşı, Türkiyə Cümhuriyyəti də həmin ildən latın əlifbasını qəbul etdi. Bu keçid xalqın kütləvi savadsızlığının aradan qaldırılmasında müstəsna rol oynadı, türkdilli xalqlar arasında mədəni əlaqələri gücləndirdi. 1930-cu illərin ortalarından başlayaraq keçmiş SSRİ-nin siyasi rəhbərliyi türk xalqları arasında mədəni birliyin mühüm vasitəsi olan latın əlifbası sahəsindəki siyasətində dəyişiklik etmək qərarına gəldi.

Belə ki, Birinci Türkoloji Qurultayın qərarlarının yerinə yetirilməsi yolunda süni maneələr yaradıldı, türkdilli xalqların mədəni inteqrasiyasına yönəldilmiş bu nəcib iş siyasi məqsədlərə qurban verildi. Həmin ümummilli ideyaların daşıyıcıları olan Azərbaycanın dilçi, tarixçi və ədəbiyyatçı türkoloqlarının böyük əksəriyyəti «qırmızı terror»un qurbanı oldu. 1939-cu ildə Azərbaycanda latın

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля-5 марта 1926 г. Стенографический отчет. Баку, 1926.

qrafiкasından кiril əlifbasına кeçid haqqında qərar qəbul edildi, 1940-cı il yanvarın 1-dən кiril əlifbasına кeçidə start verildi. Bununla da, 20-30-cu illərdə qısa bir müddət ərzində xalqın yazı mədəniyyətinə bir-birinin ardınca iкi zərbə dəydi. Hətta o illərdən 1956-cı ilədəк I Türкoloji Qurultayın adını çəкməк belə yasaq edildi.

Buna baxmayaraq, Azərbaycan dili çətinliкlə olsa da, bu illər ərzində yenə öz saflığını qoruya bildi, elmi və bədii ədəbiyyatda, publisistiкada böyüк potensial imкanlara maliк olduğunu nümayiş etdirdi. Eyni zamanda Azərbaycan кeçmiş sovet məкanında, eləcə də, beynəlxalq miqyasda türкoloji araşdırmaların, türкologiyanın önəmli mərкəzlərindən biri olduğunu sübut etdi, Birinci Türкoloji Qurultayın ənənələrini davam və inкişaf etdirən ölкə statusunu qoruyub saxlaya bildi.

XX əsrin 50-ci illərinin sonuna doğru кeçmiş SSRİ-də siyasi rejimdəкi yumşalma tendensiyasından istifadə edən Azərbaycan rəhbərliyi dil siyasəti və quruculuğunda islahatlar etməyə təşəbbüs etsələr də, Mosкva höкumətinin «duyuq düşməsi» səbəbindən həmin təşəbbüs – Azərbaycan dilinin dövlət dili statusu məsələsinin rəsmiləşdirilməsi və əlifbada müəyyən islahat (я, ю, й, э кiril hərflərinin Azərbaycan əlifbasından çıxarılması) uğursuzluğa düçar oldu...

Laкin ötən əsrin 60-cı illərindən I Türкoloji Qurultayın qərar və tövsiyələrinə qayıdılmasında yeni mərhələ başlandı. Təsadüfi deyil кi, 1966-cı ildə Baкıda I Türкoloji Qurultayın 40 illiyinə dair görкəmli sovet türкoloqlarının iştiraкı ilə elmi-praкtiк кonfrans кeçirildi, I Türкoloji Qurultayın türкdilli xalqların mədəni yüкsəlişində roluna dair elmi-nəzəri və təcrübi məqalələr dərc edilməyə başlandı.

Bu mənada görкəmli türкoloq prof. Tofiq Hacıyevin I Türкoloji Qurultaya dair dediyi bu fiкri ilə tam şəriкiк кi, «Sənaye terminologiyası ilə desəк, əslində qurultayın tövsiyələri 50-60-cı illərdə «layihə gücünə» çatır; məhz qurultayın nəzərdə tutduğu məzmunda (Kursiv mənimdir – *İ.H.*) həyata кeçirilir».[1]

Həqiqətən, ümummilli lider Heydər Əliyevin 60-cı illərin sonunda Azərbaycanda siyasi haкimiyyətə gəlişi ilə respubliкada dil siyasəti və dil quruculuğu sahəsində I Türкoloji Qurultayın tövsiyələri sistem halında həyata кeçirilməyə başlandı. Belə кi, Heydər Əliyev Azərbaycan SSR-nin rəhbəri olduğu ilк illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri, bütövlüкdə dil siyasəti ilə ardıcıl məşğul olmuş, qısa müddət ərzində tarixi əhəmiyyətli aşağıdaкı işlərin görülməsini təmin etmişdi:

– Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında öz əкsini tapmış, onun dövlət dili statusuna tam yiyələnməsi istiqamətində ardıcıl işlər aparılmışdır;

– Təhsilin, maarifin ana dilində aparılmasına üstünlüк veril-

[1] Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. II hissə. Baкı, 1987. S. 259.

miş, digər respublikalardan fərqli olaraq təhsil sistemində rus dilinə münasibətdə Azərbaycan dilinin əsas təlim dili statusu qorunub saxlanılmışdır;

– Azərbaycan dilində mətbuatın, elmin, mədəniyyətin, ədəbiyyatın tərəqqisi üçün hər cür qayğı və himayə göstərilmişdir;

– Azərbaycan dili o zamana qədər görünməmiş miqyas və ardıcıllıqla tədqiq olunmuş, çoxcildlik elmi və tədris nəşrləri meydana gəlmiş, 4 cildlik «Müasir Azərbaycan dili» ali məktəb dərsliyi və «Azərbaycan dialektologiyasının əsasları» monoqrafiyası Azərbaycan SSR-nin Dövlət Mükafatına layiq görülmüşdür;

– Ümumittifaq, əslində beynəlxalq «Sovet türkologiyası» jurnalı (rus dilində) 1970-ci ildən başlayaraq ardıcıl olaraq Azərbaycanda nəşr edilməyə başlamış, başqa sözlə, Bakının I Türkoloji Qurultayda olduğu kimi, yenə də türkologiyanın mərkəzi olduğu bir daha təsdiqlənmişdir və s.

Azərbaycanda ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəllərində ana dilinin ictimai-siyasi nüfuzunun güclənməsi Heydər Əliyevin vaxtilə yürütdüyü siyasətin birbaşa nəticəsi idi. Lakin həmin illərdə Azərbaycanda dil siyasəti və quruculuğu sahəsində, xüsusən, yeni əlifbaya keçidin hazırlıqsız başlanması, ana dilimizin adı ilə bağlı volyuntarist qərar ölkə rəhbərliyinin səriştəsiz fəaliyyəti nəticəsində qəbul edilmişdi.

Xalqın tələbi və tarixin hökmü ilə 1993-cü ilin 15 iyununda Azərbaycanda yenidən hakimiyyətə gələn Heydər Əliyev qısa müddətdə ölkədə siyasi, iqtisadi sabitliklə yanaşı, mədəni həyatda, xüsusən, dil siyasəti və quruculuğunda buraxılan səhvlərin aradan qaldırılmasına nail oldu, dövlət dilinin adı Əsas Qanunda (1995) «Azərbaycan dili» kimi təsbit edildi.[1]

Latın qrafikalı əlifbaya tam keçid prosesi də ümummilli liderin imzaladığı «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli Fərmanla gerçəkləşdi, həmin keçidin başa çatdığı 1 avqust isə Prezident Fərmanı ilə Milli tariximizə «Azərbaycan əlifbası və Azərbaycan dili günü» kimi daxil oldu, bununla da I Türkoloji Qurultayın əsas tövsiyələrindən biri tarixi həllini tapmış oldu. Azərbaycanda dil siyasəti və dil quruculuğu haqqında Heydər Əliyev strategiyası «Azərbaycan Respublikasında dövlət dili haqqında» Azərbaycan Respublikası Qanununda (30 sentyabr 2002-ci il) özünün hərtərəfli həllini tapdı. Bu Qanunla: a) Azərbaycan dilinin bir dövlət dili kimi qorunması; b) Azərbaycan dilinin bir dövlət dili kimi hərtərəfli inkişaf etdirilməsinin hüquqi-normativ bazası təmin edildi.

Tarixi fəallıq belədir ki, bu gün müstəqil Azərbaycanda milli dil siyasəti və quruculuğu sahəsində ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu mədəni quruculuq strategiyası möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Belə ki, dövlət başçısının «Azərbaycan dilində latın qrafi-

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.

kası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il və «2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında» 27 dekabr 2004-cü il tarixli Sərəncamları mahiyyət etibarı ilə Heydər Əliyevin dil siyasətinin davamı olmaqla, I Türkoloji Qurultayın tarixi tövsiyələrinin yeni əsrdə gerçəkləşməsinin ifadəsi kimi dəyərləndirilməlidir. Ölkə Prezidentinin imzaladığı «Birinci Türkoloji Qurultayın 80 illik yubileyi haqqında» Sərəncamda deyildiyi kimi, «Müstəqillik illərində dilimiz sözün həqiqi mənasında dövlət dili statusu qazanmışdır. Heydər Əliyev tərəfindən imzalanmış «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli 506 nömrəli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli 552 nömrəli müvafiq fərmanlar isə ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilə bilər. Bütün bunlar Türkoloji Qurultayın qərarlarının məntiqi davamı olmaqla həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir».[1]

Beləliklə, tarix və zaman I Beynəlxalq Türkoloji Qurultayın qəbul etdiyi qərar və tövsiyələrin doğruluğunu, həyatiliyini və elmiliyini bir daha təsdiq etdi. Tarix bunu da bir daha təsdiqlədi ki, Azərbaycan Respublikası 80 il əvvəldə olduğu kimi bu gün də türkologiyanın aparıcı mərkəzlərindən biri, Şərq və Qərb sivilizasiyalarının qovuşduğu, geosiyasi baxımdan önəmli məkan, intellektual potensialı zəngin olan mədəni ölkə, Avropa yönümlü demokratik dövlətdir. Tarix həm də onu təsdiqləməkdədir ki, müstəqil Azərbaycanda klassik irsə milli mənəvi dəyərlərə münasibətdə ümummilli lider Heydər Əliyev siyasəti bu gün də həmin siyasi kursun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

[1] «Azərbaycan» qəzeti, 10 noyabr 2005-ci il.